# "İçərişəhər"
# Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi
# Publik Hüquqi Şəxs

**31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə**

**birləşdirilmiş (konsolidə edilmiş)**

## MALİYYƏ HESABATLARI

## VƏ

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Bakı şəh., 2022-ci il

# MÜNDƏRİCAT:

| Bölmələrin adları | Səhifənin nömrəsi |
|---|---|
| Maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsinə görə məsuliyyətlə bağlı rəhbərliyin bəyanatı | 3-4 |
| Müstəqil auditorun hesabatı (Şərti müsbət rəy) | 5-7 |
| 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabat (1 nömrəli əlavə) | 8-9 |
| 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat (xərclərin funksiyaları üzrə) (2 nömrəli əlavə) | 10-11 |
| 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə Kapitalda dəyişikliklər haqqında hesabat (3 nömrəli əlavə) | 12-13 |
| 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə Pul vəsaitlərinin hərəkəti haqqında hesabat hesabat (birbaşa metod) (4 nömrəli əlavə) | 14-15 |
| 31 dekabr 2021-ci il tarixinə birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarına İzahlı Qeydlər və Şərhlər | 16-28 |

**Maliyyə hesabatlarının istifadəçilərinə**

**"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanmasına və təqdim edilməsinə görə məsuliyyətlə bağlı**

## RƏHBƏRLİYİN BƏYANATI

Bu bəyanat "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin (bundan sontra "Publik Hüquqi Şəxs") strukturuna daxil olan qurumların 31.12.2021-ci il tarixində tamamlanan hesabat ili üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra "MHBS") uyğun hazırlanmış birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları (bundan sonra "Maliyyə hesabatları") ilə bağlı "Global Audit" MMC-nin (bundan sonra "Müstəqil auditor") hesabatında şərh edilən məsələlərə görə Publik Hüquqi Şəxsin rəhbərliyinin məsuliyyətini Müstəqil auditorun məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik, Publik Hüquqi Şəxsin strukturuna daxil olan qurumlarda mühasibat uçotunun Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi ilə müəyyən edilmiş qaydalara uyğun aparılmasına və 31 dekabr 2021-cu il tarixinə Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini, həmin tarixdə başa çatmış il üzrə maliyyə-təsərrüfat əməliyyatlarının nəticələrini, pul vəsaitlərinin hərəkətini və xalis aktivlərdəki dəyişiklikləri əks etdirən Maliyyə hesabatlarının MHBS-na uyğun düzgün hazırlanmasına və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı Maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Rəhbərliyin seçiminə əsasən, Publik Hüquqi Şəxs 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə Maliyyə hesabatlarını MHBS-na uyğun tərtib etmişdir.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılara görə məsuliyyət daşıyır:

- uyğun mühasibat uçotu prinsiplərinin seçilməsinə və mütəmadi olaraq tətbiq edilməsinə görə;
- Maliyyə hesabatlarının MHBS əsasında hazırlanmasına və ya əgər bu standartlardan hər hansı bir əhəmiyyətli kənarlaşmalar varsa, bu kənarlaşmanın Maliyyə hesabatlarında açıqlanmasına və izah edilməsinə görə;
- MHBS-nın xüsusi tələbləri ilə uyğunluq istifadəçilərə Publik Hüquqi Şəxsin maliyyə vəziyyəti və məcmu gəlir haqqında müəyyən əməliyyatların, digər hadisələrin və vəziyyətlərin təsirinin anlaşılması üçün kifayət etmədikdə bununla bağlı Maliyyə hesabatlarında əlavə açıqlamaların təmin edilməsinə görə;
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsinə görə;
- yaxın gələcəkdə Publik Hüquqi Şəxs işini normal şərtlər altında davam etdirdiyi halda, hesabat tarixinə Maliyyə hesabatlarının daimilik prinsipi əsasında hazırlanmasına görə.

Rəhbərlik həmçinin aşağıdakı məsələlərə görə məsuliyyət daşıyır:

- Publik Hüquqi Şəxsin daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanmasına, qurulmasına və möhkəmləndirilməsinə görə;

- Maliyyə hesabatlarının MHBS-na uyğun olaraq düzgün hazırlanmasına və Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil edilməsinə görə;
- Publik Hüquqi Şəxsdə mühasibat uçotunun Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq təşkil edilməsinə və aparılmasına görə;
- Mümkün imkanlardan istifadə edərək Publik Hüquqi Şəxsin aktivlərinin mühafizəsinin təşkilinə görə;
- Saxtakarlıq, yanlışlıq və digər qanunazidd halların müəyyən edilməsinə və qarşısının vaxtında alınmasına görə;
- Audit nəticəsində Publik Hüquqi Şəxsin fəaliyyətində müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması üçün təsirli tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə görə.

Rəhbərlik bununla təsdiq edir ki, Publik Hüquqi Şəxsin maliyyə vəziyyətini tələb olunan dəqiqliklə açıqlaya bilən, Maliyyə hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə uyğun olmasını təmin edən müvafiq və adekvat mühasibat müxabirləşmələrinin doğruluğuna yetərli dərəcədə diqqət yetirilmişdir.

Publik Hüquqi Şəxsin 31 dekabr 2020-ci il tarixində başa çatan hesabat dövrü üzrə maliyyə hesabatlarının auditi "ABAK-AZ Crowe LTD" MMC tərəfindən aparılmışdır və Şərti müsbət rəy verilmişdir.

Rəhbərlik təsdiq edir ki, Publik Hüquqi Şəxsin 31 dekabr 2021-ci il tarixində başa çatan hesabat dövrü üzrə Maliyyə hesabatlarının auditinin aparılması üçün başqa auditorla müqavilə bağlanmamışdır və başqa auditor tərəfindən həmin dövr üzrə Maliyyə hesabatlarının auditi aparılmamışdır.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** **S.K.Seyidzadə**

**Baş mühasib** **G.N.Əhmədova**

Bakı şəhəri, 07 dekabr 2022-ci il

AZƏRBAYCAN RESPUBLİKASI İÇƏRİŞƏHƏR DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ AZERBAIJAN REPUBLIC

GLOBAL AUDIT

**Limited Liability Company** **Məhdud Məsuliyyətli Cəmiyyəti**

**VÖEN/ TIN: 2003615731**

**Unvan:** Azərbaycan Respublikası, AZ1111, Bakı şəhəri, Nəsimi Rayonu, Hənifə Ələsgərov küçəsi 37. Mob: (+994 50) 247 36 14
**Address:** Azerbaijan Republic, AZ1111, Baku, Nasimi district, Hanifa Alasgarov 37. Mob: (+994 50) 247 36 14

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**"İÇƏRİŞƏHƏR" DÖVLƏT TARİX-MEMARLIQ QORUĞU İDARƏSİ PUBLİK HÜQUQİ ŞƏXSİN RƏHBƏRLİYİNƏ**

## ŞƏRTİ MÜSBƏT RƏY

Biz, bundan sonra "Publik Hüquqi Şəxs" adlandırılacaq "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin (VÖEN 1700711731) strukturuna daxil olan qurumların 31 dekabr 2021-ci il tarixinə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra "MHBS") uyğun hazırlanmış, Maliyyə vəziyyəti haqqında hesabatdan (1 nömrəli əlavə), həmin tarixdə tamamlanan il üzrə Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan (2 nömrəli əlavə), Kapitalda dəyişikliklər haqqında hesabatdan (3 nömrəli əlavə), Pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan (4 nömrəli əlavə) və Maliyyə Hesabatları üzrə Şərhlər və Qeydlərdən ibarət olan birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının (bundan sonra "Maliyyə hesabatları" adlandırılacaq) auditini aparmışıq.

Hesab edirik ki, əlavə olunan Maliyyə hesabatları Publik Hüquqi Şəxsin 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini MHBS-na uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

### Şərti müsbət rəy üçün əsaslar

Publik Hüquqi Şəxsin əvvəlki hesabat dövrü üzrə maliyyə hesabatlarında 31.12.2020-ci il tarixinə olan bəzi qalıqların ilkin uçot sənədlərində və mühasibat uçotu registrlərində olan faktiki göstəricilərə uyğun olmadığı müəyyən edilmişdir. Bu kənarlaşmanın nəticəsinin Maliyyə hesabatlarına təsiri müəyyən edilə bilməmişdir.

Həmçinin müəyyən edilmişdir ki, Publik Hüquqi Şəxs mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının hazırlanması üçün Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarından və büdcə təşkilatları üçün müəyyən edilmiş mühasibat uçotunun hesablar planından istifadə edir. Bu, mühasibat uçotu sahəsində qanunvericiliyin tələblərinə uyğun deyildir. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 12-1-ci maddəsinə əsasən, bu Qanunun 12-1.2-ci maddəsində göstərilən mühasibat uçotu subyektləri istisna olmaqla, publik hüquqi şəxslər maliyyə hesabatlarını MHBS-na uyğun şəkildə tərtib etməli və mühasibat uçotunu bu Qanunun 8.1-1-ci maddəsi ilə müəyyən edilmiş uçot qaydalarına uyğun aparmalıdırlar. Digər tərəfdən Qanunun 8.1-1-ci maddəsində müəyyən edilmişdir ki, bu Qanunun 8.1-ci maddəsində nəzərdə tutulmuş mühasibat uçotu subyektləri (kredit təşkilatları istisna olmaqla) mühasibat uçotunu MHBS-na əsasən müvafiq icra hakimiyyəti orqanının təsdiq etdiyi uçot qaydalarına uyğun aparmalıdırlar. Azərbaycan

Respublikası Maliyyə Nazirliyi Kollegiyasının 30.01.2017-ci il tarixli Q-01 №li Qərarı ilə təsdiq edilmiş "Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"nın 9.2.-ci bəndinə əsasən, mühasibat uçotu subyektləri maliyyə hesabatlarının tərtib olunması üçün mühasibat uçotunun aparılması zamanı bu Qaydalarla müəyyən edilmiş Hesablar Planından istifadə etməlidirlər.

Biz, auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəllesinin" (bundan sonra "IESBA Məcəlləsi" adlandırılacaq) və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Publik Hüquqi Şəxsdən asılı deyilik və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və müvafiq əsası təmin edir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər Maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair auditor rəyinin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin məsuliyyəti**

Rəhbərlik Maliyyə hesabatlarının MHBS-na uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin olmadığı Maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır. Maliyyə hesabatlarını hazırladıqda rəhbərliyin Publik Hüquqi Şəxsi ləğv etmək və ya onun işini dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa real alternativin olmadığı hallar istisna olmaqla, rəhbərlik Publik Hüquqi Şəxsin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda Publik Hüquqi Şəxsin fəaliyyətinin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına və Maliyyə hesabatlarında fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə olunmasına görə məsuliyyət daşıyır.

Publik Hüquqi Şəxsdə idarəetməyə məsul şəxslər Maliyyə hesabatlarının hazırlanması və təqdimatı prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz Maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olub-olmamasına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin də daxil olduğu Müstəqil auditorun hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin o, BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir.Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrı-ayrılıqda, yaxud ümumilikdə istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsiretmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-lara uyğun aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mülahizə tətbiq edir və peşəkar skeptikliyi qoruyub saxlayırıq. Biz həmçinin:

- dələduzluq və ya səhvlər nəticəsində yaranmasından asılı olmayaraq, Maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olması riskini aşkar edir və qiymətləndiririk; həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayırıq və icra edirik, rəyimizi bildirmək üçün yetərli və müvafiq olan audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkarlanmaması riski səhvlər nəticəsində yaranan riskdən daha yüksəkdir, çünki dələduzluq gizli sövdələşmədən, bilərəkdən səhv buraxmaqdan, məlumatın təhrifli təqdimatından və ya daxili nəzarət qaydalarına əməl olunmamasından ibarət ola bilər;
- Publik Hüquqi Şəxsin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;
- rəhbərlik tərəfindən tətbiq edilən uçot siyasətinin müvafiqliyini və aparılmış mühasibatlıq hesablamalarının və əlaqəli açıqlamaların əsaslı olmasını qiymətləndiririk;
- rəhbərliyin fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin müvafiqliyi və əldə etdiyimiz audit sübutlarına əsasən, Publik Hüquqi Şəxsin fəaliyyətini fasiləsiz davam etdirmək qabiliyyətini mühüm şübhə altına sala bilən hadisə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə qənaətə gəlirik.

Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin olması qənaətinə gəlsək, hesabatımızda diqqəti Maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara yönəltməli və ya bu cür açıqlamalar qeyri-adekvat olduqda rəyimizi modifikasiya etməliyik. Bizim gəldiyimiz nəticələr hesabat tarixinə qədər əldə etdiyimiz audit sübutlarına əsaslanır.

Publik Hüquqi Şəxsin fəaliyyətində müşahidə olunan bəzi çatışmazlıqlar və bununla bağlı ehtimal olunan risklər barədə Publik Hüquqi Şəxsin rəhbərliyini və idarəetməyə məsul şəxslərini məlumatlandırmışıq.

"Global Audit" MMC-nin direktoru-auditoru A.A.Pirimov

Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən verilmiş 19.01.2019-cu il tarixli № SA/421 saylı İcazə

Sərbəst auditor İ.S.Süleyman

Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş 27.04.2022-ci il tarixli SA/309 saylı İcazə

Bakı şəhəri, 07 dekabr 2022-ci il

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti GLOBAL AUDİT Limited Liability Company Azerbaijan Republic

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına
və Kommersiya Təşkilatları ucun Milli Muhasibat
Ucotu Standartlarına əsasən mühasibat uçotunun
aparılması Qaydaları"na 1 nömrəli Əlavə

## Maliyyə vəziyyəti haqqında hesabat
### 31 dekabr 2021-ci il tarixinə

**Mühasibat uçotu subyekti:** "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxs
**VÖEN:** 1700711731
**Sahə (fəaliyyət növü):** Daşınmaz tarixi və mədəni abidələrin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün abidələrin tarixi və mədəni cəhətdən öyrənilməsi, məqsədyönlü istifadə olunmasının təşkili, abidələrin bərpasının və toxunulmazlığının təmin edilməsi, Qoruğun ərazisində turizmin inkişaf etdirilməsi
**Mülkiyyət növü:** Dövlət mülkiyyəti
**Təşkilati-hüquqi forması:** Publik hüquqi şəxs
**Hüquqi ünvan:** AZ1095, Bakı şəhəri, Səbail rayonu, İçərişəhər, A.Zeynallı küçəsi, 20/85

**Ölçü vahidi: manat**

| Bölümün, maddənin №-si | Bölümün, maddənin adı | İzahlı qeydlərə istinad | 2021 | | 2020 | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 4 | 5 | 6 | 7 | 8 |
| | **AKTİVLƏR** | | | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | | | |
| 10 | Qeyri-maddi aktivlər | | X | 1 495 975,11 | | 1 518 838,83 |
| 11 | Torpaq, tikili və avadanlıqlar | | X | 159 397 300,21 | | 161 018 318,46 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | X | | | |
| 13 | Bioloji aktivlər | | X | 137 761,70 | X | 137 761,70 |
| 14 | Təbii sərvətlər | | X | | X | |
| 15 | İştirak payı metodu ilə uçota alınmış investisiyalar | | X | | X | |
| 16 | Təxirə salınmış vergi aktivləri | | X | | X | |
| 17 | Uzunmüddətli debitor borcları | | X | | X | |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | X | 9 458 339,24 | | 4 571 919,60 |
| 19 | Sair uzunmüddətli qeyri-maliyyə aktivləri | | X | 1 487 957,98 | | 1 483 059,98 |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | | **171 977 334,24** | | **168 729 898,56** |
| 2 | **Qısamüddətli aktivlər** | | | | | |
| 20 | Ehtiyatlar | | X | 302 969,16 | | 390 445,67 |
| 21 | Qısamüddətli debitor borcları | | X | 176 457,52 | X | 229 708,33 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | | X | 2 548 970,14 | | 2 002 566,99 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | X | 118 699,78 | X | 131 022,78 |
| 24 | Sair qısamüddətli aktivlər | | X | 10 943,88 | | 123,17 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | | **3 158 040,48** | | **2 753 866,94** |
| | **CƏMİ AKTİVLƏR** | | | **175 135 374,72** | | **171 483 765,50** |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | | |
| **3** | **Kapital** | | | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə) kapital | X | 1 000 000,00 | X | 1 000 000,00 |
| 31 | Emissiya gəliri | X | | X | |
| 32 | Geri alınmış kapital (səhmlər) | (x) | | (x) | |
| 33 | Kapital ehtiyatları | X | 174 938 844,09 | | 171 086 823,64 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | x(x) | (808 051,00) | | (607 690,57) |
| | **CƏMİ KAPİTAL** | | **175 130 793,09** | | **171 479 133,07** |
| **4** | **Uzunmüddətli öhdəliklər** | | | | |
| 40 | Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | X | | X | |
| 41 | Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | X | | X | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | X | | X | |
| 43 | Uzunmüddətli kreditor borcları | X | | X | |
| 44 | Sair uzunmüddətli öhdəliklər | X | | X | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | | | |
| **5** | **Qısamüddətli öhdəliklər** | | | | |
| 50 | Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | X | | X | |
| 51 | Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | X | | X | |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | X | | X | |
| 53 | Qısamüddətli kreditor borcları | X | 4 581,63 | X | 4 632,43 |
| **54** | **Sair qısamüddətli öhdəliklər** | X | - | X | - |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | **4 581,63** | X | **4 632,43** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **4 581,63** | | **4 632,43** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **175 135 374,72** | | **171 483 765,50** |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** **Ş.K.Şeyidzadə**

**Baş mühasib** **G.N.Əhmədova**

Bakı şəhəri, 07 dekabr 2022-ci il

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına
və Kommersiya Təşkilatları ucun Milli Muhasibat
Ucotu Standartlarına əsasən mühasibat uçotunun
aparılması Qaydaları"na 2 nömrəli Əlavə

# Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat
## (xərclərin funksiyaları üzrə)
## 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə

**Mühasibat uçotu subyekti:** "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxs
**VÖEN:** 1700711731
**Sahə (fəaliyyət növü):** Daşınmaz tarixi və mədəni abidələrin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün abidələrin tarixi və mədəni cəhətdən öyrənilməsi, məqsədyönlü istifadə olunmasının təşkili, abidələrin bərpasının və toxunulmazlığının təmin edilməsi, Qoruğun ərazisində turizmin inkişaf etdirilməsi
**Mülkiyyət növü:** Dövlət mülkiyyəti
**Təşkilati-hüquqi forması:** Publik hüquqi şəxs
**Hüquqi ünvan:** AZ1095, Bakı şəhəri, Səbail rayonu, İçərişəhər, A.Zeynallı küçəsi, 20/85

**Ölçü vahidi: manat**

| **Bölmə (maddə) və hesab №-si** | **Göstəricilərin adları** | **Uçot siyasəti və izahlı qeydlərin №-si** | **2021** | **2020** |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | | 1 553 443,60 | 1 217 884,52 |
| 70 | Satışın maya dəyəri üzrə xərclər | | (1 255 121,29 | (1 166 939,60) |
| | **Ümumi mənfəət** | | **298 322,31** | **50 944,92** |
| 61 | Sair əməliyyat gəlirləri | | 11 463 572,95 | 9 819 117,59 |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | | | |
| 73 və 61 | Sair əməliyyat xərcləri | | (11 962 255,42 | (10 313 705,03) 03 |
| 62 və 74 | Fəaliyyətin dayandırılmasından yaranan mənfəət (zərərlər) | | | |
| | **Əməliyyat mənfəəti (zərəri)** | | **(200 360,42)** | **(443 642,52)** |
| 63 və 75 | Maliyyə mənfəəti (zərəri) | | | |
| 64 və 76 | Fövqəladə mənfəət (zərər) | | | |
| 81 | Asılı və birgə müəssisələrin mənfəətlərində (zərərlərində) pay | | | |
| | Vergiqoyulmadan əvvəl mənfəət (zərər) | | | |
| 90 | Mənfəət vergisi | | | **(1 752,99)** |
| **80** | **Hesabat dövründə xalis mənfəət (zərər)** | | **(200 360,42)** | **(445 395,51)** |
| | O cümlədən, | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| | əsas Təşkilat sahiblərinin mənfəəti (zərəri) | | (200 360,42) | (445 395,51) |
| | Digər məcmu gəlir | | 3 852 020,45 | 154 344 925,57 |
| | Məcmu gəlir (xalis mənfəətin (zərərin) və digər məcmu gəlirin cəmi) | | 3 651 660,03 | 153 899 530,06 |
| | O cümlədən | | | |
| | qeyri-nəzarət payları üzrə xalis mənfəət (zərər) | | | |
| 73 | əsas Təşkilat sahiblərinin mənfəəti (zərəri) | | 3 651 660,03 | 153 899 530,06 |

## Xərclərin xüsusiyyətləri üzrə təsnifat əsasında əməliyyat xərcləri haqqında MƏLUMAT

| Bölmənin/ maddənin №-si | | Uçot siyasəti və izahlı qeydlərin №-si | 2021 | 2020 |
|---|---|---|---|---|
| | Hazır məhsul və bitməmiş istehsal ehtiyatlarındakı artımlar (azalmalar) | | | |
| | Maliyyə yardımları və sair transfer ödənişləri | | | |
| | İstifadə edilmiş material ehtiyatları | | (602 562,15) | (500 638,93) |
| | İşçi heyəti üzrə xərclər | | (7 413 951,47) | (6 908 216,89) |
| | Amortizasiya ayırmaları | | (2 318 354,93) | (1 090 779,41) |
| | Digər əməliyyat xərcləri | | (2 882 508,16) | (2 981 009,40) |
| | **Cəmi əməliyyat xərcləri** | | **(13 217 376,71)** | **(11 480 644,63)** |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** **Ş.K.Seyidzadə**

**Baş mühasib** **G.N.Əhmədova**

Bakı şəhəri, 07 dekabr 2022-ci il

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları ucun Milli Muhasibat Ucotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 3 nömrəli Əlavə

# Kapitalda dəyişikliklər haqqında hesabat
## 31 dekabr 2021-ci il tarixinə

**Mühasibat uçotu subyekti:** "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxs
**VÖEN:** 1700711731
**Sahə (fəaliyyət növü):** Daşınmaz tarixi və mədəni abidələrin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün abidələrin tarixi və mədəni cəhətdən öyrənilməsi, məqsədyönlü istifadə olunmasının təşkili, abidələrin bərpasının və toxunulmazlığının təmin edilməsi, Qoruğun ərazisində turizmin inkişaf etdirilməsi
**Mülkiyyət növü:** Dövlət mülkiyyəti
**Təşkilati-hüquqi forması:** Publik hüquqi şəxs
**Hüquqi ünvan:** AZ1095, Bakı şəhəri, Səbail rayonu, İçərişəhər, A.Zeynallı küçəsi, 20/85

**Ölçü vahidi: manat**

| Göstəricilərin adları | Uçot siyasəti və izahlı qeydlərin №-si | Ödənilmiş nizamnamə kapitalı | Emissiya gəliri | Geri alınmış kapital (səhmlər) | Kapital ehtiyatları | | | | | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Yenidən qiymətləndirmə üzrə ehtiyat | Məzənnə fərqləri üzrə ehtiyat | Qanunvericilik üzrə ehtiyat | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | | |
| **Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq** | | **1 000 000,00** | | | | | | | **16 741 898,07** | **(162 295,06)** | **17 579 603,01** |
| Əvvəlki hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra əvvəlki hesabat dövrünün əvvəlinə qalıq** | | | | | | | | | | | |
| Əmlakın yenidən qiymətləndirilməsindən qazanc və itkilər | | | | | | | | | | | |
| Əvvəlki hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | (445 395,51) | **(445 395,51)** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | 151 277 161,80 | | | | 3 067 763,77 | | **154 344 925,57** |
| **Əvvəlki hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | **151 277 161,80** | | | | **3 067 763,77** | **(445 395,51)** | **153 899 530,06** |
| **Əvvəlki hesabat dövrünün sonuna qalıq** | | **1 000 000,00** | | | **151 277 161,80** | | | | **19 809 661,84** | **(607 690,57)** | **171 479 133,07** |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Hesabat dövründə uçot siyasətində dəyişikliklər və ya əhəmiyyətli səhvlərlə bağlı düzəlişlər | | | | | | | | | | | |
| **Səhvlərin düzəldilməsindən sonra hesabat dövrünün əvvəlinə qalıq** | | | | | | | | | | | |
| Hesabat dövründə xalis mənfəət (zərər) | | | | | | | | | | (200 360,43) | **(200 360,43)** |
| Mülkiyyətçilərin kapital qoyuluşları | | | | | | | | | | | |
| Mülkiyyətçilər arasında kapitalın bölüşdürülməsi (dividendlər) | | | | | | | | | | | |
| Geri alınmış kapital (səhmlər) üzrə əməliyyatlar | | | | | | | | | | | |
| Kapitalın maddələri arasında köçürmələr | | | | | | | | | | | |
| Sair məcmu gəlir | | | | | | | | | 3 852 020,45 | | **3 852 020,45** |
| **Hesabat dövrü üzrə kapitalda dəyişikliklərin cəmi** | | | | | | | | | **3 852 020,45** | **(200 360,43)** | **3 651 660,02** |
| **Hesabat dövrünün sonuna qalıq** | | **1 000 000,00** | | | **151 277 161,80** | | | | **23 661 682,29** | **(808 051,00)** | **175 130 793,09** |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** **Ş.K.Seyidzadə**

**Baş mühasib** **G.N.Əhmədova**

Bakı şəhəri, 07 dekabr 2022-ci il

"Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və Kommersiya Təşkilatları ucun Milli Muhasibat Ucotu Standartlarına əsasən mühasibat uçotunun aparılması Qaydaları"na 4 nömrəli Əlavə

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat
## (birbaşa metod)
## 31 dekabr 2021-ci il tarixinə

**Mühasibat uçotu subyekti:** "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxs
**VÖEN:** 1700711731
**Sahə (fəaliyyət növü):** Daşınmaz tarixi və mədəni abidələrin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün abidələrin tarixi və mədəni cəhətdən öyrənilməsi, məqsədyönlü istifadə olunmasının təşkili, abidələrin bərpasının və toxunulmazlığının təmin edilməsi, Qoruğun ərazisində turizmin inkişaf etdirilməsi
**Mülkiyyət növü:** Dövlət mülkiyyəti
**Təşkilati-hüquqi forması:** Publik hüquqi şəxs
**Hüquqi ünvan:** AZ1095, Bakı şəhəri, Səbail rayonu, İçərişəhər, A.Zeynallı küçəsi, 20/85

**Ölçü vahidi: manat**

| | Uçot siyasəti və izahlı qeydlərin №-si | 2021 | 2020 |
|---|---|---|---|
| 1 | 2 | 3 | 13 |
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | | |
| Malların satışından və xidmətlərin göstərilməsindəndaxilolmalar | | 1 609 396,34 | 1 276 364,43 |
| Royaltilər, yığımlar və komisyon haqları üzrə daxilolmalar | | | 813 000,00 |
| Digər gəlirlərdən daxilolmalar | | 15 315 593,40 | 12 886 881,36 |
| **Əməliyyat fəaliyyətindən cəmi daxilolmalar** | | **16 924 989,74** | **14 976 245,79** |
| Mallar və xidmətlərə görə xaricolmalar | | (2 099 764,73) | (2 821 310,59) |
| İşçilərin mükafatlandırılması ilə əlaqədar ödənişlər | | (7 413 951,47) | (6 908 216,89) |
| Mənfəət vergisi ödənişi üzrə xaricolmalar | | | |
| Digər vergilərə görə xaricolmalar | | (666 730,00) | |
| Büdcəyə qaytarılan vəsait | | | |
| Fəaliyyətin maliyyələşdirilməsi üçün digər qurumlara pul vəsaitlərinin ödənilməsi | | | |
| Digər ödənişlərə görə xaricolmalar | | (348 695,03) | (297 867,53) |
| **Əməliyyat fəaliyyətindən cəmi xaricolmalar** | | **(10 529 141,23)** | **(10 027 395,01)** |
| **Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **6 395 848,51** | **4 948 850,78** |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin hərəkətləri** | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin satışından əldə olunan pul vəsaitlərinin daxilolmaları | | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üçün pul vəsaitlərinin xaricolmaları | | (5 849 445,37) | (3 077 244,30) |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının satılmasından yaranan pul vəsaitlərinin daxilolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin daxilolmaları istisna olmaqla); | | | |
| digər müəssisələrin pay və ya borc alətlərinin və birgə müəssisədə iştirak paylarının əldə edilməsi üçün ödənilən pul vəsaitlərinin xaricolmaları (pul vəsaitlərinin ekvivalentləri kimi nəzərə alınan və sazişlərin bağlanılması və ya ticarət məqsədləri üçün nəzərdə tutulmuş alətlər üzrə pul vəsaitlərinin xaricolmaları istisna olmaqla); | | | |
| digər tərəflərə verilmiş borcların qaytarılmasından pul vəsaitlərinin daxilolmaları; | | | |

| | | | |
|---|---|---|---|
| digər tərəflərə verilmiş borclara görə pul vəsaitlərinin xaricolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin daxilolmaları; | | | |
| fyuçers, forvard, opsion və svop müqavilələri üzrə pul vəsaitlərinin ödənişləri; | | | |
| İnvestisiya fəaliyyəti ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları. | | | |
| **İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti** | | **(5 849 445,37)** | **(3 077 244,30)** |
| **Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərininhərəkəti** | | | |
| səhmlərin və digər kapital alətlərin buraxılması nəticəsində yaranan pul vəsaitlərinin daxilolmaları | | | |
| müəssisənin öz səhmlərinin əldə edilməsi və ya yenidən alınması nəticəsində pul vəsaitlərinin xaricolmaları | | | |
| təminatsiz istiqrazların, borc sənədlərinin, veksellərin, istiqraz vərəqələrinin, girov kağızlarının buraxılmasından və digər qısamüddətli və uzunmüddətli borcların alınmasına görə pul vəsaitlərinin daxilolmaları; | | | |
| borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində pul vəsaitlərinin daxilolmaları | | | |
| məqsədli maliyyələşdirmə şəklində alınmış məbləğlərin geri qaytarılmasına görə pul vəsaitlərinin xaricolmaları | | | |
| maliyyə icarəsi müqavilələrinin şərtlərinə əsasən əsas məbləğlər üzrə pul vəsaitlərinin xaricolmaları | | | |
| dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| faizlər şəklində pul vəsaitlərinin xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətlər ilə əlaqədar pul vəsaitlərinin fövqəladə daxilolmaları və xaricolmaları | | | |
| Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | | **546 403,14** | **1 871 606,48** |
| **Pul vəsaitlərinin və onların ekvivalentlərinin hərəkəti** | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin əvvəlinə olan məbləği** | | **2 002 567,00** | **130 960,52** |
| il ərzində pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması) | | 546 403,14 | 1 871 606,48 |
| xarici valyutaların məzənnələrinin dəyişməsinin təsiri | | | |
| **bank overdraftları çıxılmaqla pul vəsaitləri və onların ekvivalentlərinin ilin sonuna olan qalığı** | | **2 548 970,14** | **2 002 567,00** |

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** Ş.K.Seyidzadə

**Baş mühasib** G.N.Əhmədova

Bakı şəhəri, 07 dekabr 2022-ci il

# "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxsin strukturuna daxil olan qurumların 31 dekabr 2021-ci il tarixinə birləşdirilmiş (konsolidə edilmiş) Maliyyə hesabatlarına

## İZAHLI QEYDLƏR VƏ ŞƏRHLƏR

## 1. GİRİŞ

Təqdim olunan birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatları (bundan sonra "Maliyyə hesabatları") Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (bundan sonra "MHBS") uyğun olaraq 31 dekabr 2021-ci il tarixində tamamlanan il üzrə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Publik Hüquqi Şəxs (bundan sonra "Publik Hüquqi Şəxs") üçün hazırlanmışdır.

### 1.1. Publik Hüquqi Şəxs haqqında ümumi məlumat

Publik Hüquqi Şəxs "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanına uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin bazasında yaradılmışdır.

Publik Hüquqi Şəxsin əsas fəaliyyətinə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunun və "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisində yerləşən tarix və memarlıq abidələrinin qorunmasının və ərazi üçün müəyyən edilmiş rejimin saxlanmasının təmin edilməsi üçün elmi, tarixi və mədəni cəhətdən öyrənilməsi, təbliği, məqsədyönlü istifadəsinin təşkili, abidələrin bərpasının, qorunub saxlanmasının və toxunulmazlığının təmin edilməsi və Qoruğun ərazisində turizmin inkişaf etdirilməsi daxildir. Nizamnaməsində qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün Publik Hüquqi Şəxs sahibkarlıq fəaliyyətini həyata keçirir.

16.07.2007-ci il tarixində Azərbaycan Respublikasının Vergilər Nazirliyi tərəfindən Publik Hüquqi Şəxsə 1700711731 saylı vergi ödəyicisinin eyniləşdirilməsi nömrəsi (VÖEN) verilmişdir.

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin strukturunun təsdiq edilməsi və işçi sayının müəyyən edilməsi barədə" 14 noyabr 2017-ci il tarixli Qərarına uyğun olaraq Publik Hüquqi Şəxsin strukturuna aşağıdakı qurumlar daxildir:

1. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Aparatı (şöbələr və sektorlar).
2. "İçərişəhər" Muzey Mərkəzi
3. Mənzil-kommunal və Təmir Xidməti
4. Elmi-istehsalat Bərpa Emalatxanası
5. Elmi-mədəni Mərkəz
6. Marionet Teatrı
7. Tahir Salahovun Ev-muzeyi
8. Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi
9. Ənənəvi İncəsənət Mərkəzi

31.12.2021-ci il tarixinə Publik Hüquqi Şəxsin nizamnamə kapitalı 1 000 000,00 manat təşkil etmişdir. Publik Hüquqi Şəxsin hüquqi ünvanı: AZ1095, Bakı şəhəri, Səbail rayonu, A.Zeynallı küçəsi, 20/85

### 9.1. Rəhbərlik

İdarə heyətinin sədri Əsgər Əyyub oğlu Ələkbərov (bu vəzifədə 12.05.2016-cı il tarixindən 03.03.2022-ci il tarixinədək işləmişdir).

İdarə heyətinin sədri Şahin Kamil oğlu Seyidzadə (bu vəzifədə 03.03.2022-ci il tarixindən indiyədək işləyir).

Maliyyə direktoru Kəmalə Əlyar qızı Əliyeva (bu vəzifədə 19.12.2017-ci il tarixindən 05.07.2022-ci il tarixinədək işləmişdir).

Maliyyə direktoru Şəfəq Zaqif qızı Bayramova (bu vəzifədə 06.07.2022-ci il tarixindən indiyədək işləyir).

Baş mühasib Gülarə Nadir qızı Əhmədova (bu vəzifədə 12.03.2021-ci il tarixdən indiyədək işləyir).

## 10. TƏQDİMATIN ƏSASLARI

### 10.1. Əməliyyat valyutası

Maliyyə hesabatlarındakı göstəricilər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

### 10.2. Publik Hüquqi Şəxsin əməliyyat mühiti

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkəmizdə iqtisadi artım müşahidə olunmuşdur. Lakin hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycan Respublikasının biznes mühitinə də öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Publik Hüquqi Şəxsin maliyyə vəziyyətinə təsirini, əgər təsiri varsa, qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

2020-ci ilin ilk aylarından başlayan və 2021-ci il ərzində davam edən "Covid 19" koronavirus pandemiyası dünyada qlobal miqyasda qeyri-stabilliyə səbəb olmuşdur. Bu hadisə Azərbaycan Respublikasının biznes mühitinə də öz mənfi təsirini göstərmişdir.

Maliyyə hesabatlarında Azərbaycan Respublikasındakı biznes mühitinin Publik Hüquqi Şəxsin fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri Publik Hüquqi Şəxsin rəhbərliyi tərəfindən qiymətləndirilir.

Gələcəkdə biznes mühiti rəhbərliyin cari qiymətləndirməsindən fərqlənə bilər.

## 11. UÇOT SİYASƏTİNİN TƏQDİMATI

Uçot siyasətinin Maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə, göstərilən Uçot siyasətinin müddəaları təqdim edilən bütün hesabatlarda ardıcıl tətbiq edilmişdir.

### 3.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

Publik Hüquqi Şəxs mühasibat uçotunun aparılması və maliyyə hesabatlarının hazırlanması üçün Büdcə Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarından və büdcə təşkilatları üçün müəyyən edilmiş mühasibat uçotunun hesablar planından istifadə edir. mühasibat uçotunu büdcə

təşkilatları üçün milli mühasibat uçotu standartlarına uyğun olaraq aparır. Təqdim olunan Maliyyə hesabatları isə MHBS-na uyğun olaraq hazırlanmışdır.

Maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Bu qiymətləndirmə və ehtimallar rəhbərliyin qısamüddətli hadisə və hərəkətlər barədə məlumatlarına əsaslanır, sonda nəticələr həmin qiymətləndirmələrdən və ehtimallardan fərqli ola bilər.

Maliyyə hesabatlarının MHBS-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Publik Hüquqi Şəxsin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

**Əvvəlki hesabat dövrü üzrə maliyyə hesabatlarındakı qalıqlara düzəlişlər**

Əvvəlki hesabat dövrü üzrə maliyyə hesabatlarında 31.12.2020-ci il tarixinə olan bəzi qalıqların ilkin uçot sənədlərinə və mühasibat uçotu registrlərində olan göstəricilərə uyğun olmadığı müəyyən edilmişdir. Əvvəlki dövr üzrə maliyyə hesabatlarında olan, 31.12.2020-ci il tarixinə ilkin uçot sənədlərinə və mühasibat uçotu registrlərində olan göstəricilərə uyğun olmayan qalıqlar dəqiqləşdirilmişdir və müvafiq düzəlişlər edilməklə hazırkı Maliyyə hesabatlarında faktiki qalıqlar əks etdirilmişdir.

## 3.2. Valyutaların yenidən hesablanması

### (a) Funksional valyuta və hesabat valyutası

Maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün funksional valyutadan istifadə olunur. Bu, Azərbaycan Respublikasının valyutası olan Azərbaycan manatıdır (AZN).

### (b) Əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilmiş valyuta məzənnələrinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqi funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir.

Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nəğd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçilərə verilən müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərcləri, əmlak, torpaq, tikili və avadanlıq və qeyri-maddi aktivlər daxildir.

**(c) xarici valyutaların məzənnələri**

Maliyyə hesabatlarının tərtib olunması üçün Publik Hüquqi Şəxs aşağıdakı valyuta məzənnələrindən istifadə edir:

| 31 dekabr 2020-ci il tarixinə: | 31 dekabr 2021-ci il tarixinə: |
|---|---|
| 1 ABŞ dolları = 1,7000 AZN | 1 ABŞ dolları = 1,7000 AZN |
| 1 Avro = 2,0890 AZN | 1 Avro = 1,9265 AZN |

**3.3. Əsas vəsaitlər**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;
(b) bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticarət sövdələşmələrində aktivin mübadilə edildiyi dəyərdir.

Binalar üzrə ədalətli dəyər müvafiq qaydada vaxtaşırı keçirilən qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla).

Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidənqiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Publik Hüquqi Şəxsə keçsin və düzgün qiymətləndirilə bilinsin. Cari təmir və istismar xərcləri o dövrün "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatı"nda əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmiş olsun.

Torpağın və binaların yenidənqiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidənqiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir. Hər il aktivlərin yenidənqiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları və aktivlərin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

**Amortizasiya ayırmaları**

Amortizasiya ayırmaları "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir. Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır. Digər əsas vəsaitlər üzrə amortizasiya

ayırmaları azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində müvafiq amortizasiya dərəcələrini tətbiq etməklə həyata keçirilir.

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Aktivlərin xaricolmalarından mənfəət və zərərlər "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir.

### 3.4. Qeyri-maddi aktivlər

Qeyri-maddi aktivlər onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılır. Müəyyən faydalı xidmət müddətinə malik olmaqla faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

### 3.5. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir.

Qiymətdən düşmə zərəri aktivlərin balans dəyərinin onların əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Aktivlərin əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivlərin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;
(b) Aktivlərin istifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

### 3.6. İnvestisiyalar

Publik Hüquqi Şəxs özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

- ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;
- borc vəsaitləri və debitor borcları;
- investisiyalar;
- satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

(a) Ədalətli dəyərinin dəyişməsi "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilən maliyyə aktivləri

Bu kateqoriya iki alt kateqoriyaya bölünür:

- ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri ;
- ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilən maliyyə aktivləri.

Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir.

Törəmə maliyyə alətləri də həmçinin satış üçün nəzərdə tutulmuş hesab edilirlər ki, onlar hedçinqləşdirmə alətləri deyildirlər.

Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşlarsa, və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qısamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

(b) borc vəsaitləri və debitor borcları

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (kotirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləri olub, o vaxt yaranırlar ki, Publik Hüquqi Şəxs debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Əgər ödəmə müdəti maliyyə hesabatlarının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə, belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər.

Borc vəsaitləri və debitor borcları mühasibat balansında "Debitor borcları" maddəsinin tərkibində əks etdirilir.

(c) ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar

Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlara münasibətdə ödəniş müddətinin çatmasına qədər Publik Hüquqi Şəxsin onları saxlamağa qəti niyyəti və imkanı vardır.

(d) satış üçün nəzərdə tutulmuş maiyyə aktivləri

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri maliyyə hesabatlarının tətib edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilir və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər

### 3.7. Ehtiyatlar

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Maya dəyərinə material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

Ehtiyatlar o zaman nəzərə alınır ki, Publik Hüquqi Şəxs keçmiş hadisələr nəticəsində cari hüquqi və ya konstruktiv öhdəliyə malik olur və ehtimal edilir ki, öhdəliyi təmin etmək üçün iqtisadi mənfəətli resurslara ehtiyac olsun və öhdəliyin dəyəri müəyyən olunsun.

### 3.8. Alıcıların və sifarişçilərin debitor borcları

Alıcılarla və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır.

Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları o halda yaradılır ki, Publik Hüquqi Şəxs tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya elə obyektiv sübutlar mövcuddur ki, bütün debitor borclarının ödənilməsi mümkünsüzdür.

Ehtiyatların məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir.

### 3.9. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nəğd pul məbləğinə çevrilə bilən və dəyəri cuzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nəğd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesablarındakı pul vəsaitləri, valyuta hesablarındakı pul vəsaitlərinin manat ekvivalentləri və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar, həmçinin ƏDV-subhesabında olan pul vəsaitləri əks etdirilir.

Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsində əks etdirilir.

### 3.10. Nizamnamə kapitalı

Səhmlər (paylar) kapital kimi təsnifləşdirilir. Yeni səhmlərin (payların) buraxılması ilə əlaqədar olan xərclər kapitalın tərkibində əks etdirilir.

### 3.11. Kreditlər bə borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödənmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekti çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar Publik Hüquqi Şəxs tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

### 3.12. Mənfəət vergisi

Mənfəət vergisi Maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan vergi qanunvericiliyinə uyğun olaraq hesablanır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir. Lakin həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar dövlət büdcəsinə ödəniləcək və ya büdcədən əvəzləşdiriləcək məbləği təşkil edir.

Vergiyə cəlb edilən mənfəət və ya zərər Maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisi istisna olmaqla digər vergilər "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da inzibati xərclər kimi, yaxud digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat öhdəliklər metodu istifdə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların Maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə).

Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır. Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

### 3.13. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar o zaman yaradılır ki:

- Publik Hüquqi Şəxs keçmiş hesabat dövrlərində baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;
- ehtimal olunur ki, bu öhdəliklərin sahmana salınması üçün pul vəsaitlərinin axını qaçılmazdır, labüddür;
- bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Restrukturizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdənçıxma müavinətləri daxildir.

Gələcək dövrlərin əməliyyat xərcləri (zərərləri) üzrə ehtiyatlar yaradılmır.

### 3.14. Gəlirlərin tanınması

Gəlirlər satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlirlər aşağıdakı qaydada tanınır:

a) malların satışından (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlirlər:

Malların satışından (işlərin görülməsindən, xidmətlərin göstərilməsindən) gəlirlər o hesabat dövrünə aid edilir ki, bu satış (işlər və xidmətlər) həyata keçirilmişdir və satış (işlər və xidmətlər) üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır.

Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

b) faiz gəlirləri - faiz gəlirləri faktiki əldə edildiyi dövrdə gəlir kimi tanınır.
c) dividendlər - dividendlər o zaman tanınır ki, təsisçinin mənfəət əldə etmək hüququ konkret müəyyən olunmuşdur.

### 3.15. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə əməliyyat icarəsi kimi təsnifləşdirilir.

Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, "Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat"da əks etdirilir.

### 3.16. Dividendlərin verilməsi

Publik Hüquqi Şəxsin təsisçisinə dividendlər Maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Publik Hüquqi Şəxsin təsisçisi tərəfindən müvafiq qərar qəbul edilmişdir və təsdiq edilmişdir.

## 4. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

### 4.1. Maliyyə riskərinin faktorları

Publik Hüquqi Şəxsin fəaliyyəti bir sıra maliyyə risklərinə meyllidir: kredit riski, bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir riski və qiymət riski daxil olmaqla), likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski və sairə.

Publik Hüquqi Şəxsin risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir və Publik Hüquqi Şəxsin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Publik Hüquqi Şəxs müəyyən risklərin minimallaşdırılması üçün lazımi tədbirlər görür. Publik Hüquqi Şəxs daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

### 4.2. Kredit riski

Publik Hüquqi Şəxsin kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir.

### 4.3. Bazar riski

Publik Hüquqi Şəxs bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklər baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır.

Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

### 4.4. Faiz dərəcəsi riski

Publik Hüquqi Şəxsin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

## 5. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ MÜHASİBAT TƏXMİNLƏRİ

Publik Hüquqi Şəxs növbəti maliyyə ili ərzində maliyyə hesabatlarında əks etdirilən aktivlərin və öhdəliklərin məbləğlərinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edilir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

### 5.1. Debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər

Gələcək pul vəsaitlərinin hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

### 5.2. Binaların yenidən qiymətləndirilməsi

Hər bir balans tarixində Publik Hüquqi Şəxsin binalarının ədalətli dəyərinin maliyyə hesabatlarında əks etdirilməsi məqsədilə, rəhbərlik binaların yenidənqiymətləndirilməsi üzrə əsas əldə etmək məqsədilə müstəqil qiymətləndirmə hesabatının tələb olunduğunu müəyyən etmək üçün peşəkar mülahizələr irəli sürür.

### 5.3. Vergi, sosial sığorta, valyuta və gömrük qanunvericiliyinin nəzərə alınması

Azərbaycan Respublikası qanunvericiliyində baş verən dəyişikliklər Maliyyə hesabatlarında nəzərə alınır.

## 6. BEYNƏLXALQ STANDARTLARA EDİLMİŞ DƏYİŞİKLİKLƏRİN TƏTBİQİ

MHBS-a edilmiş dəyişikliklərin və onlara dair şərhlərin tətbiqinin Publik Hüquqi Şəxsin maliyyə vəziyyətinə və əməliyyat nəticələrinə təsiri əhəmiyyətli olmamışdır.

## 7. SAİR QISAMÜDDƏTLİ MALİYYƏ AKTİVLƏRİ

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Sair qısamüddətli maliyyə aktivləri | 118 699,78 | 131 022,78 |

## 8. UZUNMÜDDƏTLİ AKTİVLƏR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Qeyri-maddi aktivlər | 1 495 975,11 | 1 518 838,83 |
| Sair uzunmüddətli maliyyə aktivləri | 9 458 339,24 | 4 571 919,60 |
| Sair uzunmüddətli aktivlər | 1 487 957,98 | 1 483 059,98 |

## 9. EHTİYATLAR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| **Cəmi:** | 302 969,16 | 390 445,67 |

## 10. QISAMÜDDƏTLİ DEBİTOR BORCLARI

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Qısamüddətli debitor borcları | 176 457,52 | 229 708,33 |

## 11. TORPAQ, BİNALAR, TİKİLİLƏR, AVADANLIQ VƏ DİGƏR UZUNMÜDDƏTLİ AKTİVLƏR

(manat)

| | Binalar, qurğular, kapitallaşdırılmış təmir xərcləri | Maşın və avadanlıq | Nəqliyyat vasitələri | Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası | Digər əsas vəsaitlər | Bioloji aktivlər | Cəmi |
|---|---|---|---|---|---|---|---|
| **31 dekabr 2020-ci il tarixinə balans dəyəri** | **156 052 444,18** | **3 033 140,65** | **328 947,42** | **2 187,78** | **1 601 598,43** | **137 761,70** | **161 156 080,16** |
| Daxilolmalar | 896 400,00 | 9 893,31 | | | 44 543,42 | | 950 836,73 |
| Silinmələr | (15 652,92) | (181 061,61) | | | (56 785,20) | | (253 499,73) |
| Amortizasiya ayırmaları | (1 615 039,63) | (422 208,43) | (67 782,76) | (437,55) | (212 886,88) | | (2 318 355,25) |
| **31 dekabr 2021-ci il tarixinə balans dəyəri** | **155 318 151,63** | **2 439 763,92** | **261 164,66** | **1 750,23** | **1 376 469,77** | **137 761,70** | **159 535 061,91** |

## 12. SAİR QISAMÜDDƏTLİ AKTİVLƏR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Sair qısamüddətli aktivlər | 10 943,88 | 123,17 |

## 13. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Pul vəsaitləri | 2 548 970,14 | 2 002 567,00 |

## 14. FAİZ XƏRCLƏRİ YARADAN QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Qısamüddətli bank kreditləri | - | - |

## 15. VERGİLƏR VƏ DİGƏR MƏCBURİ ÖDƏNİŞLƏR ÜZRƏ ÖHDƏLİKLƏR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Vergilər üzrə öhdəliklər | - | - |
| Sosial sığorta ayırmaları üzrə öhdəliklər | - | - |

## 16. QISAMÜDDƏTLİ KREDİTOR BORCLARI

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Digər kreditor borcları | 4 581,63 | 4 632,43 |

## 17. SAİR QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Alınmış qısamüddətli avanslar | - | - |
| Digər öhdəliklər | - | - |

## 18. NİZAMNAMƏ KAPİTALI

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Nizamnamə kapitali | 1 000 000,00 | 1 000 000,00 |

## 19. KAPİTAL EHTİYATLARI

(manat)

| | 31.12.2021-ci il tarixinə | 31.12.2020-ci il tarixinə |
|---|---|---|
| Kapital ehtiyatları, cəmi: | 174 938 844,09 | 171 086 823,64 |

## 20. ƏSAS ƏMƏLİYYAT GƏLİRLƏRİ

(manat)

| | 2021 | 2020 |
|---|---|---|
| Satış və xidmətlər üzrə gəlirlər | 1 553 443,34 | 1 217 884,52 |
| Dövlət büdcəsindən məqsədli maliyyələşmə (subsidiya) | 11 463 572,95 | 9 819 117,59 |
| **Cəmi:** | **13 017 016,29** | **11 037 002,11** |

## 21. DİGƏR MƏCMU GƏLİR

(manat)

| | 2021 | 2020 |
|---|---|---|
| Yenidənqiymətləndirmədən gəlirlər | - | 151 277 161,80 |
| İnvestisiya layihələri üzrə dövlət büdcəsindən məqsədli maliyyələşmədən gəlirlər | 3 852 020,45 | 3 067 763,77 |
| **Cəmi:** | **3 852 020,45** | **154 344 925,57** |

## 22. MALİYYƏ GƏLİRLƏRİNİN ELEMENTLƏRİ

(manat)

| | 2021 | 2020 |
|---|---|---|
| Depozit faiz gəlirləri | - | - |

## 23. FÖVQƏLADƏ GƏLİRLƏR

(manat)

| | 2021 | 2020 |
|---|---|---|
| Valyuta məzənnə fərqlərindən gəlirlər | - | - |
| Digər gəlirlər | - | - |

## 24. ƏMƏLİYYAT XƏRCLƏRİ

(manat)

| Xərc maddələrinin adları | 2021 | 2020 |
|---|---|---|
| İşçi heyəti üzrə xərclər | 7 413 951,47 | 6 908 216,89 |
| Kommunal və rabitə xərcləri | 77 531,03 | 96 683,61 |
| Elektrik enerjisi xərcləri | 166 073,71 | 166 671,08 |
| Ezamiyyə xərcləri | 3 850,40 | 1 576,83 |
| Poçt xidməti xərcləri | 5 937,50 | - |
| İnternet xidmətləri üzrə xərclər | 2 460,00 | - |
| Proqram təminatı üzrə xərclər | 5 210,00 | 6 200,00 |
| İcbari tibbi sığorta haqqı | 4 738,67 | 1 724,49 |
| Bank xərcləri | 45 345,31 | 41 396,41 |
| Mühafizə xərcləri | 449 696,60 | 449 697,64 |
| İcarə haqqı və muzdlu xidmətlər | 36 769,92 | 102 925,64 |
| Təmir xərcləri | 49 654,29 | 310 291,94 |

| | | |
|---|---|---|
| Kreditlər və investisiya vergiləri | 681 107,00 | 40 750,00 |
| Sanitariya-gigiyena xidmətləri | 9 698,08 | 6 060,80 |
| İstehsalyönlü müxtəlif xidmətlər | 13 610,22 | 37 804,46 |
| Əsas fondların saxlanması haqqı | 31 856,00 | 911 049,92 |
| Elmi-tədqiqat xidmətləri, təcrübə və müayinələrin haqqı | 6 640,02 | - |
| Geoloji-kəşfiyyat və topoqrafiya-geodeziya xidmətləri | 4 950,00 | 540,00 |
| Qurğuların cari təmiri | 4 150,00 | 31 150,00 |
| Qeyri-yaşayış binalarının cari təmiri | - | 4 956,72 |
| Abadlaşdırma xidmətləri | 302 472,74 | 294 939,83 |
| Beynəlxalq təşkilatlara üzvlük haqqı | 504,18 | 540,90 |
| Digər malların alınmasına çəkilmiş xərclər | 11 331,70 | 11 141,40 |
| Silinmiş avadanlıq və qeyri-maddi aktivlər | 129 296,05 | - |
| Sakinlərə kompensasiya ödənişləri | 43 407,00 | - |
| Amortizasiya ayırmaları | 2 318 354,93 | 1 090 779,41 |
| İstifadə edilmiş material ehtiyatları | 602 562,15 | 500 638,93 |
| Maliyyə yardımları və sair transfer ödənişləri | - | 85 000,00 |
| Sair xərclər | 796 217,74 | 379 907,73 |
| **Cəmi :** | **13 217 376,71** | **11 480 644,63** |

## 25. XALİS MƏNFƏƏT (ZƏRƏR)

**(manat)**

| | 2021 | 2020 |
|---|---|---|
| Xalis mənfəət (zərər) | (200 360,42) | (445 395,51) |

## 26. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ ƏMƏLİYYATLAR

Maliyyə hesabatlarının hazırlanması məqsədləri üçün tərəflər o zaman əlaqəli hesab olunur ki, tərələrdən biri digərinə nəzarət edə bilsin, onunla eyni qrupun nəzarəti altında olsun və ya maliyyə-təsərrüfat fəaliyyəti ilə bağlı məsələlər üzrə qərar qəbul edərkən ona təsir göstərə bilsin.

Əlaqəli tərəflər arasındakı münasibətləri nəzərə alarkən həmin münasibətlərin hüquqi formasına deyil, iqtisadi məzmununa diqqət yetirilir.

## 27. HESABAT TARİXİNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Hesabat tarixindən sonra Maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək elə bir hadisə baş verməmişdir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəhbərliyi adından:

**İdarə heyətinin sədri** **Ş.K.Seyidzadə**

**Baş mühasib** **G.N.Əhmədova**

Bakı şəhəri, 07 dekabr 2022-ci il